## Dövlət Statistika Komitəsində 2012-ci ildə ölkənin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş mətbuat konfransı keçirilmişdir



2013-cü il yanvarın 18-də Dövlət Statistika Komitəsində kütləvi informasiya vasitələri ilə "2012-ci ildə ölkənin sosial-iqtisadi inkişafının yekunları" mövzusuna həsr olunmuş mətbuat konfransı keçirilmişdir. Mətbuat konfransı Dövlət Statistika Komitəsinin sədri cənab Arif Vəliyev tərəfindən aparılmışdır. Cənab Arif Vəliyev 2012-ci ildə ölkənin sosial və iqtisadi sahələrində baş vermiş dəyişikliklər, iqtisadiyyatının inkişafı və sosial sferasında irəliləyişlər haqqında statistik məlumatlar təqdim etmiş və media nümayəndələrinin ümumi daxili məhsul, inflyasiya, əhalinin gəlirləri, gizli statistika ilə bağlı suallarına dəqiq və əsaslandırılmış cavablar vermişdir.

Sonda Komitə sədri 2012-ci ildə Dövlət Statistika Komitəsinin fəaliyyəti barədə məlumatı iştirakçıların nəzərinə çatdırmışdır.

